dur. muş, neftin ilkin hazırlanması və nəqli “Azneft” İB-nin “28 May” NQÇİ-nin rəisi.

# Aqrar sahə iqtisadiyyatı daha da gücləndirir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə Qax rayonunda da yüksək səviyyədə fikir verilir və bu məqsədlə ilin əvvəlindən geniş tədbirlər müəyyənləşdirilib, həyata keçirilir.* ***Rayon kənd təsərrüfatı idarəsinin rəisi Məhərrəm Məhərrəmov*** *sözügedən məsələ ilə əlaqədar bölgə müxbirimizlə söhbətində demişdir:*

—Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqində iqtisadi inkişaf proseslərindən danışarkən cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu, sənaye istehsalının 0,6 faiz, qeyri-neft sənayesinin 2,4 faiz, kənd təsərrüfatının isə 3,1 faiz artdığını bildirmişdir. Qeyd etmişdir ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulmuş, 78 min daimi iş yeri açılmışdır. İstehsalın artımı ilə yanaşı, ölkə başçısı tərəfindən ixracın stimullaşdırılması üçün həyata keçirilən dəstək tədbirləri, habelə aidiyyəti dövlət orqanları tərəfindən məhsul ixracı ilə bağlı yaranan maneələrin aradan qaldırılması nəticəsində kənd təsərrüfatı məhsullarının ixracı həm ümumilikdə, həm də müxtəlif seqmentlər üzrə kəskin şəkildə artmışdır. Belə ki, cari ilin 6 ayı ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 27,5 faiz, o cümlədən meyvə ixracı üzrə 13,1 faiz, tərəvəz məhsulları ixracı üzrə isə 33,1 faiz artıma nail olunmuşdur. Yerli istehsalın artımı heyvandarlıq məhsullarının əksəriyyəti üzrə idxalın həcminin kəskin şəkildə azalmasına səbəb olmuş, idxalın həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə ət və ət məhsulları üzrə 2,8 faiz, süd və süd məhsulları üzrə isə 15,7 faiz, iribuynuzlu heyvanların baş sayı üzrə 74,5 faiz, xırdabuynuzlu heyvanlar üzrə 94,2 faiz, damazlıq cücə üzrə 51,6 faiz azalmışdır. Kənd təsərrüfatı məhsulları istehsalının ilin sonuna qədər daha da artacağını qeyd edən ölkə başçısı bildirmişdir ki, ilkin proqnozlara əsasən cari ildə ölkədə 3 milyon ton taxıl istehsalı gözlənilir. Rayonumuzda da bu məsələlərə xüsusi önəm verilir. Rayonda bitkiçilik və heyvandarlıq sahəsinin dinamik inkişafının təmin olunması üçün nəzərdə tutulmuş tədbirlər davam etdirilərək ötən müddət ərzində 951 hektar sahədə yonca, 435 hektar sahədə tərəvəz, 147 hektar sahədə lobya, 251 hektar sahədə bostan, 389 hektar sahədə kartof, 1311 hektar sahədə qarğıdalı əkini aparılmışdır. Aqroservis filialı tərəfindən məhsul istehsalçılarına güzəştli şərtlərlə 925 ton azot, 50 ton ammofos, 1.4 ton superfosfat gübrələrinin, həmçinin 1600 litr miqdarında müxtəlif növ pestisidlərin satışı təmin olunmuş, mövsüm ərzində müəssisənin texnikaları vasitəsi ilə 30 hektar sahədə şum, 1800 hektar sahədə payızlıq taxılların biçini aparılmışdır. Payızlıq taxıl sahələrinin 350 hektarında gəmiricilərə, 210 hektar sahədə taxıl böcəyinə, 3700 hektar sahədə müxtəlif növ alaqlara, 550 hektar sahədə çəyirtkəkimilərə, rayonun ayrı-ayrı ərazilərində 600 hektar əkin və qeyri-əkin sahələrində ambroziyaya qarşı kimyəvi mübarizə aparılmış, 385 hektar sahədə mexaniki yolla məhv edilmişdir.

2016-cı ilin məhsulu üçün əkilmiş 12890 hektar payızlıq taxıl, o cümlədən 8300 hektar buğda, 4590 hektar arpa sahələrində biçin başa çatdırılmış, rayonun tarixində ilk dəfə olaraq rekord miqdarda - 36,4 min ton payızlıq dənlilər istehsal olunmuşdur ki, bu da ötən ildəkindən 7,8 min ton çoxdur.

Cari ildə rayonumuz üçün ənənəvi olan tütünçülük və baramaçılıq sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət verilərək 331 hektar sahədə tütün şitili əkilmiş, 3884 kiloqram yüksək keyfiyyətli barama istehsal olunmuşdur. Tütün sahələrində tütün yığımına başlanmış, hazırda 412 ton yaşıl tütün yarpağı tədarük olunmuşdur. Tütün yığımı hələ davam edir.

Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması, həmçinin yazlıq bitkilərin əkininə və payızlıqların biçini ilə əlaqədar 2223 nəfər istehsalçıya 1 milyon 10 min manat yardım verilməsi ilə bağlı sənədlər respublika komissiyasına təqdim olunmuşdur.

Ötən altı ay ərzində rayon ərazisində ekoloji durumun yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi və yaşıllıqların artırılması məqsədilə Şəki-Qax-Zaqatala magistral yolunun kənarında 5050 ədəd, inzibati ərazi dairələrində isə 5800 ədəd müxtəlif növ meyvə ağacları əkilmişdir. Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən 32 hektar dövlət meşə fondu torpaqlarında meşə əkini, 0.8 hektar sahədə isə ting səpini aparılmışdır.

Rayonda heyvandarlıq məhsulları istehsalının intensiv inkişaf etdirilməsinə zəmin yaradan cins maldarlığın inkişafı və süni mayalandırmanın tətbiqinin daha da genişləndirilməsi istiqamətində aparılan tədbirlər davam etdirilmişdir. 1336 baş inək-düyə yüksək məhsuldar törədici toxumları ilə süni yolla mayalandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 263 baş çoxdur.

Ötən ilin altı ayı ilə müqayisədə ət istehsalı 4.9 ton artaraq 1321.6 tona, süd istehsalı 20.7 ton artaraq 7165.8 tona, yumurta istehsalı 7 min ədəd artaraq 4.152 min ədədə çatmışdır. Respublikaya idxal olunan cins damazlıq düyələrdən 3 başının 3 nəfər fiziki şəxsə 50 faiz güzəştli lizinq yolu ilə satılması təmin olunmuşdur. Ət istehsalının artırılması məqsədilə rayonun müxtəlif ərazilərində orta illik sayı 10-40 başlıq 11 ədəd sadə tipli kökəltmə meydançası yaradılmış, quşçuluq sahəsinin inkişaf etdirilməsi məqsədilə 2 özəl inkubatorda 100 mindən artıq birgünlük cücə çıxarılaraq əhaliyə satılması təmin olunmuşdur.

Rəqəmlərdən və rayonda kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərdən aydın olur ki, torpağa, təsərrüfata yenidən qayıdış iqtisadiyyatın daha da güclənməsinə, əhalinin maddi rifah halının daha da yaxşılaşmasına sanballı təkan verir. Yeni yaradılan kənd təsərrüfatı idarələri, əlbəttə bu istiqamətdə qurulan bütün işlərə məqsədyönlü rəhbərlik edir, əməli köməklik göstərir. İdarəmizin mütəxəssisləri müvafiq qurumlarla əlaqəli iş qururlar. İlk addımların uğuru gələcəkdə aqrar sahədə daha yüksək nəticələr qazanılacağına əminlik yaradır.

**Rasim AMANOV,**
**“Respublika”.**